**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Nağıyev Əlövsət Zamanxan oğlu, Əhmədzadə İbrahim Zabit oğlu və Hətəmov Vüsal Nizami oğlunun 26 dekabr 2009-cu il tarixli 164 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Sumqayıt şəhər bələdiyyəsinin üzvlüyünə namizədlər Nağıyev Əlövsət Zamanxan oğlu, Əhmədzadə İbrahim Zabit oğlu və Hətəmov Vüsal Nizami oğlu 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, adı çəkilən bələdiyyə üzrə seçkilər keçirilərkən səsvermə və səslərin hesablanması zamanı bəzi qanun pozuntularının baş verməsini bildirmiş və qanunla müəyyən olunmuş qaydada tədbirlər görülməsini xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciətlər araşdırılarkən müəyyən edilmişdir ki, iddia edilən qanun pozuntuları müvafiq seçki dairəsinin ərazisində olan seçki məntəqələrini əhatə etdiyindən, müraciət aidiyyəti üzrə araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün müvafiq olaraq 41 saylı Sumqayıt I, 42 saylı Sumqayıt II, 43 saylı Sumqayıt III və 44 saylı Sumqayıt-Abşeron seçki dairələrinin dairə seçki komissiyalarına göndərilməlidir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1-ci və 31.1.2-ci maddələrinə əsasən seçki dairəsinin ərazisində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarına riayət olunmasına nəzarəti, Seçki Məcəlləsinin qaydalarının pozulması ilə bağlı şikayətlərə baxıb öz səlahiyyətləri daxilində qərarın qəbul edilməsini dairə seçki komissiyaları həyata keçirir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin və yuxarıda qeyd edilən Təlimatın 8.6-cı bəndinə əsasən şikayət və ya müraciət aiddiyat qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a əsasən **q ə r a r a  a l ı r :**

1. Nağıyev Əlövsət Zamanxan oğlu, Əhmədzadə İbrahim Zabit oğlu və Hətəmov Vüsal Nizami oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2009-cu il tarixli 164 saylı müraciətləri araşdırılması üçün müvafiq olaraq aidiyyəti üzrə 41 saylı Sumqayıt I, 42 saylı Sumqayıt II, 43 saylı Sumqayıt III və 44 saylı Sumqayıt-Abşeron seçki dairələrinin dairə seçki komissiyalarına göndərilsin.

2. Qərarın icrası barədə Mərkəzi Seçki Komissiyasına məlumat verilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |